# Tarixin tapmacaları: Həftənin yeddinci günü, səkkiz və digər müəmmalar

**Firəngiz Rüstəmova**
*AMEA Folklor İnstitutunun əməkdaşı*
**E-mail:** firengiz.rustamova@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. A.X. Ramazanova,
filol.ü.f.d., dos. Ş.Ə. Albalıyev

**Açar sözlər:** bazar günü, qədim mədəniyyət, ilkin təsəvvürlər, etimologiya
**Ключевые слова:** воскресенье, древняя культура, первобытные верования, этимология
**Key words:** Sunday, ancient culture, primitive beliefs, etymology

Bazar həqiqətən həftənin yeddinci və alış-veriş günüdürmü? Mənbələrdə verilən məlumatlara görə "Bazar günü – dünyanın bir çox ölkələrində həftənin sayca yeddinci (bəzilərində birinci) günü- alış-veriş günü hesab olunur.

ISO 8601 beynəlxalq standartına görə yeddi günlük həftənin yeddinci günüdür. Bazar günü həftədə şənbə günü ilə bazar ertəsi günü arasında yerləşir. Bu gün Azərbaycan dilində həm rəsmi, həm qeyri-rəsmi şəkildə bazar günü adlanır.

Rus dilində "воскресенье", yəni "dirilmə" adlanan həftənin yeddinci günü ingilis dilində "Sunday", Norveç, Hollandiya dillərində "sondag", İspan, Portuqal dillərində "domingo" (Dominus isə Tanrı, Allah deməkdir), Latın və digər latındilli xalqların dillərində "diēs solis" "Günəş" mənasında, Makedon dilində "nedela", Ukrayna dilində – " недиля", Polyak dilində – "недзеля", Belarus dilində "неделя" *(Bax:https://ru.wiktionary. org)* adlanan 7-ci günün mənası "не делать, не работать", yəni heç nə etməmək deməkdir (1). Bəs Azərbaycanda nə üçün dövlət işində işləyənlər üçün "istirahət" günü, ümumi anlamda isə "alış-veriş" günü kimi başa düşülür?

Xristianlar "воскресенье" dedikdə İsa peyğəmbərin dirilməsini nəzərdə tuturlar (2). Bəs ölüb-dirilən peyğəmbər və ya tanrı yalnız İsa peyğəmbər olmuşdur?

Məlumdur ki, əfsanələrdə ən ilkin ölüb-dirilən tanrı Qədim Misirdə Osir/Azər tanrıdır. Deltanın mərkəzi hissəsində, Abu- Sir-Bana qəsəbəsinin yaxınlığında, Sammanuda adlanan, amma sonradan Per-Usir-neb-Cedd (Ceddin sahibi olan Osirin evi) adlandırılmış yerdən cənubda qədim yaşayış ərazisi olan Cedd/ Cədd yerləşir. Cedd/Cədd Osir kultunun mərkəzi olmuş və yunanlar tərəfindən Busir/Busiris adlandırılmışdır (3, 66). Əvvəllər Andjeti tanrısının kult mərkəzi olmuş Busir/Osir qardaşı Set tərəfindən öldürülmüş və parçalanaraq Misir ərazisinə atılmışdır. Osirin bədəninin bir hissəsi olan onurğa sütününun, bel fəqərələrinin həmin ərazidə tapılmasından sonra Osir/Azər tanrısının kult mərkəzinə çevrildi. Busiris adı Yunan dilində əslində isə "Bw–Wsr" və mənası isə "Osirin yeri" deməkdir. Cedd/Cədd fəqərəyə bənzəyən sütun şəklində təsvir edilirdi. Busiris həmin dövrün zəvvarlarının getdiyi ziyarət və qurbanlıq yeri idi (4, 397-403).

Ba ruh bədəni tərk etməsə insan ölmür. Eyni zamanda, Ba ruhu bədənə qayıtmasa ölən dirilməz. Yəqin ki, təbiətin də Ba ruhu dönməsə, işıqlı və günəşli günlərin sayının çox olduğu, qışda ölmüş təbiətin yenidən dirildiyi, özbəklərin BaHOR adlandırdığı BaHAR fəsli gəlməz. Qədim Misirdə "Yer" ilə "Göy"ün, yəni yer tanrısı Geb və göy tanrıçası-ilahəsi Nutun oğlu,

Günəş tanrısı "HOR"un atası, İsida, Neftis/Neftida və Setin qardaşı, Çar və Gök/Göy Tanrı olan OSİR/AZƏR oğlu Günəş tanrısı Hor tərəfindən dirildildikdən sonra yeraltı dünyanın çarı və ölümsüz həyat üçün diriliş tanrısına çevrildi. Qışda ölmüş təbiətin yenidən dirildiyi, özbəklərin BaHOR adlandırdığı BaHAR fəsli Qazax dilində köktem adlanması da təsadüfi deyil. Axı yenidən dirilmənin tanrısı Göy/Gök tanrı Osirdir! Araşdırmalara görə məhz həftənin yeddinci günü, digər günlərlə müqayisədə Yerin maqnit sahəsi, elektrik enerjisinin enməsi, ötürülməsi, bir çox canlıların aktivliyi çoxalmağa tərəf dəyişir. Əgər deyiriksə Osir/ Azər tanrısının bədəninin bir hissəsi Busirdə tapılıb, o zaman həqiqətən də ortamın nə dərəcədə qarışmasını təsəvvür etmək o qədər də çətin deyil. Kult mərkəzi olan Busir/Busiris zəvvarların ziyarət yeri, qurbanların verildiyi bir mərkəz olmuşsa deməli, həmin yerdə zəvvarların yemək və digər ehtiyaclarını təmin etmək üçün ərzaq, qurbanlıq heyvanlar və müxtəlif vasitələr satılmışdır.

Azərbaycanda və Türkiyədə "Bazarla" bağlı bir sıra oronimlər və yaşayış əraziləri vardır. Yuxarı Qarabağın Xaçın nahiyəsində Bazar adında kənd vadır və Şah Mənsur kəndinin yaxınlığında yerləşir. Həmçinin Bazar adında qədim türkmənşəli tayfa vardır. Tiflis quberniyasının Siqnaxı qəzasında Bazarxevi adlanan coğrafi ərazidə Bazarı adlı yaşayış məntəqəsi də vardır. Tarixi Qıpçaq mənşəli Basar tayfasının adından götürülmüşdür. Qırğızlarda Bazar, qaraqalpaqlarda və kalmıklarda Basar tayfaları məlumdur. Qafqaz da bazar sözündən düzəlmiş coxlum dağ, çay və kənd adları vardır: Bazar çay, Bazar yurd, Şimali Qafqazda Qaranoqoy dairəsində Bazarnur, Zaqatala qəzasında Bazarqobu və s., (Gürcüstanda Asinza rayonunda Axisqa türklərinin yaşadığı Bazarxana əhalisi 1994-cü ildə Sibirə sürgün olunmuşdur) Zaqatala rayonunun Çobankol kəndinin bir məhəlləsi də Bazar məhəlləsi adlanır. Həmin rayonda əhalisi azərbaycanlılardan ibarət Qımır kəndinin tam adı Qımırbazar Çar kəndinin qədim adı isə Çarbazar olmuşdur. İ.P. Lineviçin 1873-cü ilə aid məlumatında Zaqatala dairəsində üç ailədən ibarət Bazartala kəndinin adı çəkilir. Azərbaycanda Dəvəçi Bazar orta əsrlərdə Yurd Bazar Anbarcı (Kür-Arazın qovşağında) toponimi məlumdur. Bazarçay – Qafqazda çay adıdır."Bazardüzü zirvəsi Böyük Qafqaz dağ silsiləsində, Azərbaycan Respublikası ilə Dağıstan sərhədində yerləşir. Ən yüksək zirvəsi 4466 m. Dağ öz adını ətəyində yerləşmiş və keçmişdə maldar ellərin yaylağı olmuş Şahnabad çayı dərəsində yerləşən Bazardüzü adlı düzənin adından götürülmüş və etnotoponim hesab olunur. Böyük Qafqaz dağ silsiləsinin zirvələrindən biri olan Bazaryurd zirvəsi Qusar və Qəbələ rayonları sərhədində olan dağdır. Hündürlüyü 4126 m.-dir. Bu oronim bazar və yurd komponentlərindən düzəlmə işdir və mənası "bazarların yurd yeri" deməkdir. (Qədimdə Astraxanbazar adlanan Cəlilabad rayonu kimi). Bu günkü Cəlilabad rayonunda 50 tarixi-arxeoloji abidə mövcuddur. Onlardan eneolit dövrünə aid Mişarçay yaşayış məskənləri, eramızdan əvvəl IV minilliyə aid Qurudərə yaşayış məskəni, tunc dövrünə aid Yeddi təpə kurqanları, eramızdan əvvəl III minilliyə aid Cinli təpə yaşayış məskəni, qədim Muğan və Bəcirəvan şəhərlərinin qalıqları, Qazanköşk, Bəcirəvan kurqanları, Pirhəsən, Pirəxəncər, Zərdüşt daxmaları kimi tarixi abidələr vardır (Bax: *az.wikipedia. org).*

Anadoluda bazar gününə Girey, Gira da deyilir. Qədim türk dilində bu günün adı "Birinç"dir. Pazar adlı Rize elinin, Tokat elinin bir ilçəsi, Ankaranın Kızılca hamam ilçəsinə bağlı bir məhəllə, Mardində Nusaybin ilçəsinə bağlı olan yenə bir məhəllə vardır. (Bax:*tr.wikipedia.org*). Qərbi Azərbaycanda da Bazar adlı ərazilər mövcuddur: "Qarğabazar-İrəvan quberniyasının İrəvan qəzasında kənd, 1590-cı ildə Rəvan əyalətində Bazarçay (orada TÜRKÜT adlı kənd də olmuşdur (5, 33, 41, 44 və 103). Bazar-Bazarçıq", Bazaryurd/Azəryurd/Busiryurd, Bazardüz/Azərdüz/Busirdüz, Mişarçay /Misirçay, Pazar/Bazar/Busir, Yedditəpə həftənin yeddinci

günü olan "Bazar" gününü, Qurudərə, Girey, Gira sözləri isə Osir/ Azər tanrısını diriltmiş olan oğlu, Hor/Qor/Gor tanrısını, bazar gününün "Birinç" adlanması isə öldükdən sonra dirilən Osirlə olan əlaqəni, dirilmənin ilk gününü xatırladır. Belə nəticəyə gəlmək olar ki, Osir/Azər tanrısının ölüb-dirilməsi müxtəlif xalqların yaddaşında, müxtəlif cür yaşayır: "воскресенье", "Sunday", "nedela", "domingo", "diēs solis" və Osir /Azər/ Busir adına ən yaxın variant olan BAZAR kimi. *(Şəkildə Osir/Azər tanrının və İsa peyğəmbərin əlində hakimiyyət rəmzi olan əsa ilə təsvirləri verilmişdir)* P.S. *OZOR isə Ata Ruhudur. Əski türklərdə Ataların ruhlarını* ifadə edər. *(yuxarıdakı şəkildə Osir/Azər tanrının və İsa peyğəmbərin əlində hakimiyyət rəmzi olan əsa ilə təsvirləri verilmişdir).*

Yenidən qayıdışın simvolu - 8! Səkkiz sözü əsil türk mənşəli söz olub say bildirir. Səksən ədədinin adı da səkkiz on sözündən yaranmışdır. Səkkiz rəqəmi və ya sözü haqqında aşağıdakı məlumatlar var.

Azərbaycan d. olan mənbələrə görə: səkkiz: miqd. s. Yeddidən sonra gələn ədəd – 8. Səkkiz kitab. Səkkiz ay. Səkkiz saat.Səkkiz döyüşçü (6).

Türk d. olan mənbələrə görə: sekiz/sekkiz "8 sayısı" [Orhun Yazıtları (735): kagan uçdukda özüm säkiz yaşda kaltım [kağan öldüğünde ben sekiz yaşında idim]]

Önemli Not: Bu kaynak kayıtlara geçmiş ve bu kelimenin kullanıldığı yazılı ilk kaynaktır. Kullanımı daha öncesinde sözlü olarak veya günlük hayatta yaygın olabilir. Kelime Kökeni

Eski Türkçe *sekiz* veya *sekkiz* sözcüğünden evrilmiştir (7).

Səkkiz=səkkiz (8). Bax\ səkiz. I, 370-3. Səh. 223. Səkiz on=səksən (80). Bux\ səksün. I. 429-23. Səkkiz=səkkiz (8). Bax\ səkiz. I, 370-3. Səkrə-=soyirtmək. Bax\ səkri-, səgrə-. ~lim I, 198-15. Səkri-=səyirtmək. Bax\ səkrə-, səgrə-. III, 257-18. ~di 111,257-16. ~r 111,257-18. ~yü 1,362-3. Səkriş-=səyrişmək, qoşuşmaq; bunda yardmı etmək və yarışmaq. Bax\ səgriş-. ~di 11,230-15. ~ür 1,256-13. Səkrit-=sıçratmaq, atlatmaq. II, 319-13. ~ti 11,319-9-11. ~ür II, 319-13.. (8, 222)

Dünya xalqlarının inancında sakral səkkiz rəqəminin yeri: "Cənubu ehtiva edən yaradıcı Pta tanrısı ilk səkkizliyi, yəni ilk dörd cütlüyü yaradan tanrıdır. Oqdoada, yəni kosmik tanrıların səkkizliyi, dörd cütlüyü var idi. Su ünsürü olan Nun və Naunet, sonsuzluğu ifadə edən Xux və Xauxet, qaranlığı ehtiva edən Kuk və Kauket, gizlin olan Amon və Amanuet.

Krişna; Vişnunun səkkizinci Avatarıdır. Odinin atı səkkiz ayaqlı idi.

Aqsa məscidin mehrabının sağ və solunda səkkiz guşəli ulduz var. Həm də o işarə Şumerlərdə Tanrı işarəsi, Oğuz xanın isə möhürü olub. Türk əsilli, Türk dilli Şumerlərdə səkkiz guşəli, lakin mərkəzdə birləşmiş hissəsi ilə doqquz sayılan tanrı işarəsi*; bu gün Azərbaycanın bayrağında olduğu kimi səkkiz guşəli ulduz idi.

Qədim türklərdə; Yer üzü, Yer Ananın, yəni Ötügenin səkkiz guşəli göbəyi olaraq təsvir edilib.

Rus mənbələrində olan məlumatlara görə: "Səkkiz rəqəmi; Xristianlıqda bərpanı, intibahı ehtiva edir və Vaftiz səkkizbucaqlı olur. 8x8 induizmdə səmaların nizamı, yer üzərində o qanunların qurulmasıdır. Məbədlərin, tapınaqların quruluşu özündə; 8x8 nizamını qoruyan mandalanı əks etdirir. Dünyanın səkkiz vilayəti, səkkiz günəşi, günün səkkiz hissəsi və səkkiz çakra olduğuna inanılır. Buddizmin simvolu 8 milli çarxdır- Dxamma çakra (9).

Daosizmdə səkkiz; müqəddəslik və ölümsüzluk, Çinlilərdə tamlığın, müvəffəqiyyətin simvoludur.

İslamda səkkiz mələk olduğuna inanılır: Vəhy mələyi Həzrət Cəbrail, Kainat hadisələrini idarə edən mələk Həzrət Mikail, Qiyamət mələyi: Həzrət İsrafil, Ölüm mələyi: Həzrət Əzrail, Kiramən katibin mələkləri, Müqərrəbin mələklər, Həmələyi-ərş mələkləri, Münkər və nəkir

mələklər” (10).

İslam dinində Cənnətin səkkiz qapısı olduğuna inanılır:

1) Reyhan qapısı (oruclunun qapısı)
2) Salat qapısı (Namaz qılan və Quran oxuyan)
3) Cihad qapısı (Allah rizasi üçün savaşan)
4) Sədəqə qapısı (zəkat, sədəqə və fitrə kimi)
5) Həcc qapısı (Həccə, ümrəyə gedənlər)
6) Əfv qapısı (bağışlaya bilən və Allahin bağışladıqları girər)
7) Eymən qapısı (Təvəkkül əhlinin girdiyi)
8) Elm qapısı (zikr və elmi ilə Allahi zikr edən)”.

İndi isə sakral səkkiz rəqəminin mifoloji və ezoterik anlamlarını araşdıraq:

Səkkiz rəqəmi; sonsuzluğun simvolu, ali qanunların əksi, qaçınılmaz keçiddir. Mifoloji obrazlarda yaranışın və ölümü ehtiva edən işarədir. Magiyada zaman və qocalığın himayədarı olan Saturnun rəmzidir. Bu rəqəm:

— İntibahı, dirçəlişi, yenidən yaranmanı
— Ədaləti
— Qanunların aliliyini
— Kosmik tarazlığı
— Uzunömürlülüyü
— Şərəf və əxlaqı simvolizə edir.

Səkkiz rəqəmi yeddidən sonra yeni tsiklin, notlarda yeni oktavanın başlanğıcı, hadisələrin yeni səviyyədə təkrarlanmasıdır. Reallaşmanın, təcəssümün simvolu olan 8 rəqəmindəki kəsişmə nöqtəsi; tarazlığın yenidən bərpasını bildirir.

İkiləşmənin və sonsuzluğun simvolu, yəni səkkiz rəqəmi; eyni vaxtda iki dünyanı, zamanı özündə birləşdirir, əridir; maddi və mənəvi aləmləri. Mənəvi, ruhani planda səkkiz; arxada qalmış yeddi pillədəki, addımdakı, səmanın yeddi qatında keçirilmiş olan məqsədin və ya təşəbbüsün; yenidən cənnətdə olmağın, xoşbəxtliyin, mükəmməlliyin ritmidir, rəmzidir.

Səkkiz dünyanın dörd cəhətinin və bu cəhətlərin ara istiqamətlərinin, əks qütblərin simvolu olub; Qədim Misirdə Tot tanrının magik rəqəmi, pifaqorçular üçün üç ölçünü və stabilliyi bildirən, şumer ənənələrində göylərin magik sayı idi.

Menli Holl yazır: “Səkkiz iki yerə bölünür, iki dördlük alınır, dördlük də iki yerə bölünür, alınan iki sayı da ikiyə bölünür və sonra qalan və ya bərpa olunan (yaradıcıya işarə) Təklik, Monada olur! Eşq, qanun, tösiyyə, anlaşma kimi sözlər Oqdoadanın açar sözləridir. Hermesin Kadusisi üzərindəki bir-birinə ilgəkləmiş olan iki ilan təsviri göy cisimlərinin hərəkətini bildirir".

Həyat mənbəyi və işarəsi “O” olan Oksigen — D. Mendeleyevin elementlərin dövri sistemində 8-ci elementdir. Qalaktika ilə günəş sisteminin bir-birinin əksi istiqamətində fırlanması səkkiz guşəli “oz” damğası yaradır.

Bütün bu araşdırmaların nəticəsi olaraq aydın olur ki, səkkiz rəqəmi geri dönüşdür, gedib bir də qayıtmaqdır: səkmək: f. Bir və ya hər iki ayaq üstündə sıçrayaraq yerimək, sıçramaq, hoppanmaq.

1.Tek veya iki ayak üzerinde sıçrayarak ilerlemek.
2.Atılan bir nesne bir yere dokunduktan sonra sıçrayarak gitmek.
3.Bir yere, bir cisme çarparak yön değiştirmek.

Deməк, araşdırmalardan aydın olur ki, səkkiz sözü və ya sakral 8 rəqəminin həm adı, həm də görkəmi; gedib, sona çatıb və yenidən geri dönmək sözü olan səkmək sözündən öz kökünü

götürüb, eyni zamanda da həmin hadisə bu şəkildə “8” işarə edilib.

Oğuz babalarımız bir kəlmə sözlə bütün səkkiz rəqəminin fəlsəfəsini deyib! Səkkiz; Səkməyin izi!

**Məqalənin aktuallığı.** İlkin ibtidai təsəvvürlərin, primitiv mədəniyyətin öyrənilməsi hər zaman aktuallığı ilə diqqəti cəlb edib. Bu ilkin təsəvvürlər insan həyatına, onun məişətinə, insanlararası münasibətlərə təsir göstərmiş, bu təsir isə mütləq şəkildə onun dilində, müəyyən hadisələrlə bağlı anlayışlarda öz əksini tapmışdır. Həmin söz və anlayışların tədqiqi isə hər zaman öz aktuallığı ilə diqqəti cəlb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə, ilk dəfə olaraq ilkin ibtidai təsəvvürlərlə bağlı olan bir qisim söz və anlayışların etimoloji izahı verilir, bu anlayışların yaranmasına səbəb olan hadisələr araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən bakalavr və magistr pilləsində təhsil alan tələbələr, tarix, sosiologiya, filologiya və xüsusilə də etimologiya ilə məşğul olanlar həm nəzəri, həm də praktik baxımdan faydalana bilər.

## Ədəbiyyat

1. Энциклопедический Словарь Ф. А. Брокгауза и И. А. Ефрона. В 86 полутомах с иллюстрациями и дополнительными материалами. С.-Петербург, 1890-1907.

2. Православная энциклопедия // http://www.pravenc.ru.

3. Мифы народов мира/Главный редактор С.А.Токарев. М.: Советская Энциклопедия, 1980.

4. Spiegel J. Zum Osiriskult von Abydos im Mittleren Reich // Die Welt des Orients, 2, 1959. Heft 5/6

5. Səmədova K. Qərbi Azərbaycan etnotoponimlərinin arealları. Bakı, 2008.

6. http://nedir.az.

7. https://www.etimolojiturkce.com.

8. Kaşğari M. Divanü lüğat-it-türk. Dörd cilddə. IV cild. Bakı: Ozan, 2006.

9. http://mar4586.narod.ru//

10. http://www.meneviyyat.az

**Ф. Рустамова**

## Загадки истории: седьмой день недели, восемь и другие тайны

## Резюме

Изучение первобытных воззрений и первобытной культуры всегда привлекало внимание своей актуальностью. Эти первобытные верования повлияли на жизнь человека, его быт и межчеловеческие отношения и это влияние было определенно отражено в его языке и понятиях, связанных с определенными событиями. Изучение этих слов и понятий всегда привлекает внимание своей актуальностью. В статье впервые дано этимологическое объяснение некоторых ключевых слов и понятий, связанных с примитивным мышлением, и исследованы события, которые

предшествуют этим понятия.

**F. Rustamova**

## Mysteries of history: the seventh day of the week, eight and other secrets

## Summary

Studying of primitive views and primitive culture always drew attention with the relevance. These primitive beliefs affected human life, and the interhuman relations and this influence was definitely reflected in its language and concepts connected with certain events. Studying of these words and concepts always draws attention with the relevance. In article the etymological explanation of some keywords and concepts connected with primitive thinking is for the first time offered and events which precede these concepts are investigated.

**Redaksiyaya daxil olub:** 04.05.2019